# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 451** **Bakı şəhəri, 24 dekabr 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56; 2008, № 8, maddə 792, № 10, maddə 926; 2010, № 3, maddə 264, № 4, maddə 351; 2014, № 10, maddə 1317; 2018, № 12 (II kitab), maddə 2738; 2020, № 11, maddə 1413) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin adına ", filiz" sözündən əvvəl ", emalı" sözü əlavə edilsin;

1.2. 2.3-cü bənd üzrə:

1.2.1. adına "yandırılması." sözündən sonra "Filizin emalı." sözləri əlavə edilsin;

1.2.2. "a) fəhlələr" abzası üzrə:

1.2.2.1. "kömürü qəbul edən nəzarətçilər" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| qırma, daşıma, topaqələviləşdirmə sahələrində nəzarətçilər |

1.2.2.2. "növbətçi və avadanlığın təmiri üzrə elektrik çilingərləri (çilingərlər)" sətrindən sonra aşağıdakı məzmunda yeni sətirlər əlavə edilsin:

| |
|---|
| qaynaqçılar |
| **əməliyyat bölməsində operatorlar** |
| qırma, daşıma, topaqələviləşdirmə sahələrində operatorlar |
| metallurqlar |

1.2.3. "b) rəhbərlər və mütəxəssislər:" abzası üzrə:

1.2.3.1. "sex rəisləri, onların müavinləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətirlər əlavə edilsin:

| |
|---|
| **əməliyyat bölməsinin rəhbəri** |
| texniki xidmət və inzibati dəstək bölməsinin rəhbəri |
| geologiya və dağ-mədən işləri bölməsinin rəhbəri |
| kəşfiyyat işləri üzrə müdir-layihə müdiri |
| mühəndislər, o cümlədən elektrik mühəndisləri |

1.2.3.2. "sex mexanikləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| elektriklər, baş elektriklər |

1.2.3.3. "energetiklər" sətrinin əvvəlinə "bütün adlarda" sözləri əlavə edilsin;

1.2.3.4. "sex energetikləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| filizə nəzarət texnikləri |

1.3. 10.2-ci bənd üzrə:

1.3.1. adı aşağıdakı redaksiyada verilsin:

"10.2. Neft, qaz və qaz kondensatının hasilatı, qəbulu və saxlanması sahəsi";

1.3.2. "a) fəhlələr:" abzasına "qüllə quraşdırıcı-elektrik montyorları" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| kompressor qurğularının maşinistləri |

1.4. 21.5-ci bənd üzrə:

1.4.1. ikinci sətir 21.5.1-ci yarımbənd hesab edilsin;

1.4.2. "elektrik mexanikləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətirlər əlavə edilsin:

| |
|---|
| elektrik qatarlarının (seksiyalarının) maşinistləri |
| elektrik qatarlarının (seksiyalarının) maşinistlərinin köməkçiləri |
| motovoz maşinistləri |
| motovoz maşinistlərinin köməkçiləri |
| kompressor qurğusunun maşinisti |
| drezin sürücüsünün köməkçisi |
| yol nəzarətçisi |
| tunel fəhlələri |
| süni qurğular təmirçisi |
| süni qurğular baxıcısı |
| yol baxıcısı |
| yol montyoru |
| metropolitenin stansiya və tunel avadanlıqlarına xidmət göstərilməsi üzrə elektrik çilingərləri |
| avadanlıqların təmiri və qulluğu üzrə elektrik çilingəri |
| metropolitenin metal konstruksiyalarına xidmət göstərilməsi və təmiri üzrə elektrik çilingərləri |
| metropolitenin avadanlıqlarına xidmət göstərilməsi üzrə elektrik çilingərləri |
| eskalatora xidmət göstərilməsi və təmiri üzrə elektrik çilingəri |
| rezin məmulatların təmirçisi |
| markşeyder işlərində dağ-mədən fəhləsi |
| nəzarət vaqonunun tənzimləyicisi |
| **çəkiclə işləyən dəmirçi** |
| kontakt qaynaq maşınının qaynaqçısı |
| yol, maşın və mexanizmlərin tənzimləyiciləri |
| daxili sanitar-texniki sistem və avadanlıqların montajçısı |
| ultrasəsli defektoskop aparatının operatorları və operator köməkçiləri |
| ultrasəs nəzarəti üzrə defoktoskopçular |
| izoləedicilər |
| kabel lehimləyicisi |
| **əl ilə qaynaqda elektrik qaynaqçısı** |

1.4.3. aşağıdakı məzmunda 21.5.2-ci yarımbənd əlavə edilsin:

| |
|---|
| 21.5.2. Yalnız gecə vaxtlarında tunellərdə və yeraltı qurğularda daimi məşğul olan rəhbərlər, mütəxəssislər, texniki icraçılar: |
| bütün adlarda tunel ustaları (böyük tunel ustaları, tunel ustaları, tunel usta köməkçiləri) |
| böyük elektrik mexanikləri |
| elektrik mexanikləri (rabitə üzrə elektrik mexaniki) |
| elektronçu |
| təlimatçı maşinist |

1.5. 29-cu hissə üzrə:

1.5.1. "a) fəhlələr:" abzasının ikinci və üçüncü sətirləri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| asfalt və beton döşəyənlər |
| asfalt və beton bişirənlər |

1.5.2. "Metropoliten, yer qurğularının tikintisi və təmiri üzrə yeraltı işlər" bəndinin "a) fəhlələr:" abzasına "pardaqlayıcı üzçəkənlər" sətrindən sonra aşağıdakı məzmunda yeni sətirlər əlavə edilsin:

| |
|---|
| **üzlükçülər** |
| **üzlükçü-tavaçılar** |
| **üzlüklü-plitəçilər** |

**2.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tarif-ixtisas sorğu kitabçalarının altı ay müddətində bu Qərara uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***Əli ƏSƏDOV,***
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .- 2022.- 27 dekabr.- S.11.